Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Partiyaların yenidən qeydiyyatı hüquqi dövlət quruculuğunda təsirli islahata çevrilir...

**Hər bir ölkədə ictimai və dövlət maraqlarının müdafiə edilməsin mühüm rol oynayan platformalardan biri də siyasi partiya və institutlardır. Hər bir siyasi partiyanın hədəfində siyasi hakimiyyətdə təmsil olunmaq, dövlətin inkişafında daha yaxından rol oynamaq məqsədi var ki, bu məqsədə çatmaq, onu gerçəkləşdirmək konkret siyasi, iqtisadi, elmi, mədəni və s. konsepsiyalar tələb edir.**

Hansı ki, bu konsepsiyaların cəmiyyətdən dəstək alması, onun dövlətin inkişafına həqiqətən də töhfə verməsi üçün onun ictimai və dövlət maraqlarına uyğun şəkildə tərtib olunması son dərəcə önəmlidir.

**Azərbaycanda siyasi partiyalar ictimai və dövlət maraqlarını yetərincə müdafiə edirmi?**

Məlum olduğu kimi, Azərbaycanda xeyli sayda siyasi partiya fəaliyyət göstərməkdədir. Sevindiricidir ki, ölkənin ictimai-siyasi həyatında iştirak edən məlum siyasi partiyaların böyük əksəriyyəti həm ictimai, həm də dövlət maraqlarının müdafiə edilməsində ciddi fəallıq sərgiləməkdədir. Hansı ki, yaxın tarixi keçmişdə baş verən bir sıra olaylar bu gerçəyi sübut edir. Azərbaycan siyasi partiyaların dövlətlə həmrəyliyi çərçivəsində atılan addımlardan biri də siyasi partiya rəhbərlərinin 2021-ci ilin 7 oktyabr tarixində işğaldan azad edilən ərazilərə - Şuşa şəhərinə səfərinin təşkil edilməsi oldu. Səfərdə 43 siyasi partiyanın 55 nümayəndəsi, o cümlədən tanınmış politoloqlar, siyasi şərhçilər də iştirak etmişdir. Onlar səfər əsnasında həm erməni faşizminin törətdiyi vəhşiliklər, həm də Azərbaycanın qısa zamanda bu ərazilərdə həyata keçirdiyi böyük quruculuq işləri ilə tanış olmuşdular.

Siyasi partiyaların analoji səfəri 2021-ci ilin 17 mart tarixndə Ağdam şəhərinə də təşkil edilmiş, həmin səfər əsnasında partiya nümayəndələri erməni vandalizminin Azərbaycanın qədim şəhərlərindən olan Ağdamı tamamilə məhv etdiyinə şahid olmuşdular. Bu səfərlrdə iştirak edən siyasi partiya rəhbərləri, politoloq və şərhçilər səfərdən sonra öz təəssüratlarını həm yerli, həm də beynəlxalq mediaya verdikləri açıqlamalarda bölüşmüş, erməni faşizminin ifşa edilməsində yaxından iştirak etmişdilər. Hansı ki, bu gün də siyasi partiyalar, bu partiyaların təmsilçiləri bütün mümkün vasitələrlə Ermənistanın təxribatçı və terrorçu simasını ifşa edir, düşmənin 30 ilə yaxın müddətlərdə işğalda saxladıqları Azərbaycan torpaqlrında törətdikləri vəhşilikləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdadır.



**Artıq siyasi arenada qalan partiyalarda onlar üçün yeni dövr başlanır**

Hazırda siyasi partiyaların təkrar qeydiyyata alınması prosesi davam edir. "Siyasi partiyalar haqqında" Qanuna əsasən, partiyaların üzvlərinin reyestrinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması həyata keçirilir.

Artıq siyasi arenada qalan partiyalarda onlar üçün yeni dövr başlanır, meydan açılır. Təbii ki, yeni çətinliklər də olacaq. Proporsional seçkilər bərpa olunacağı ilə bağlı söhbətlər dolaşır. Belə olan halda partiyaların üzərinə daha böyük məsuliyyət, daha çox işləmək, daha çox təşkilatlanmaq, daha çox üzvləri cəlb etmək kimi böyük məsuliyyət düşəcək. Proporsional seçki sistemində insanlar fərdlərə deyil, düşüncəyə, partiyanın ideologiyasına, proqramına səs verəcək. Ekspertlər düşünür ki, proporsional seçki sistemi təkcə partiyalara hüquq vermək deyil, həm də məsuliyyət verməkdir, onları yoxlamaqdır.

**Partiyaların "yenidən doğuluşu", yoxsa…**

Qeyd edək ki, tanınmış müxalif partiyalar reyestrdən keçib. Sentyabrın 9-da Ədliyyə Nazirliyi 3 partiyanı (Xalq Cəbhəsi, Müsavat və REAL) təkrar dövlət qeydiyyatına alıb.

Bunu partiyaların "yenidən doğuluşu" kimi qiymətləndirənlər də var. Bəs bu doğuluşdan (təkrar qeydiyyatdan) sonra sözügedən partiyaların fəaliyyətində hansısa köklü dəyişikliklər, yeniliklər baş verəcəkmi? Bu suala birmənalı və konkret cavab vermək də olar, verməmək də olar.

Böyük ehtimalla, elə də ciddi dəyişikliklər müşahidə olunmasa da, fəallıq artacaq.

Siyasi mühitimizdə yenilənmənin baş verməsi üçün əslində partiyaların aktivləşməsi lazımdır. Parlament seçkilərində qarışıq seçki sistemi 2002-ci ilə qədər mövcud olub. 1995 və 2000-ci illərdə keçirilən seçkilərdə parlamentin 20%-i (25 deputat) proporsional, 80%-i isə majoritar qaydada seçilib. Məlumat üçün bildirək ki, proporsional seçki sistemində seçicilər birbaşa namizədlərə deyil, partiyalara səs verir.

Partiyalar qazandıqları səslərə görə parlamentdə mandat qazanır. Majoritar seçki sistemində isə seçicilər birbaşa namizədə səs verir və ən çox səs toplayan namizəd deputat seçilir. Hər iki sistemin özünəməxsus üstünlükləri və çatışmazlıqları var.

Proporsional seçki sistemi siyasi partiyaların güclənməsinə və plüralizmin inkişafına təkan verir, majoritar sistemdə isə xalqla deputat arasında birbaşa əlaqə olur və deputat xalqın qarşısında məsuliyyət daşıyır.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**